**Teymurov A.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.58.280-304**

# Interrogation as the investigative action acting as means of collecting proofs in the form of testimonies

**Abstract**: It is given the concept and the essence, value of such investigative action as interrogation reveals. Interrogation takes the paramount place in the system of investigative actions. Tools, methods and ways of interrogation dynamically develop and allow investigators to establish effectively events of crime and its participants. Interrogation is a receiving in the order established by the criminal procedure law authorized by the official of law enforcement agencies of information on the circumstances which are subject to establishment from the persons specified in the law and her fixing in the protocol of investigative or judicial action. In criminal trial distinguish interrogation of the defendant, suspect, witness, victim and expert. The essence of interrogation consists that during performance of investigative actions the investigator, applying the policy strokes developed in criminalistics, psychology and approved by investigative practice, induces the person to whom the circumstances directly or indirectly connected with the investigated event can be known, to give about them evidences, listens to the given information and fixes her in accordance with the established procedure in order that she could be used as the proof on criminal case. Interrogation purpose is obtaining truthful indications. The efficiency of criminal procedure activities for implementation of criminal prosecution of the persons guilty of commission of crimes, and protection of the personality against illegal and insubstantial accusation in many respects is defined by quality of a legislative regulation and

♦ **Teymurov Allahverdi Ahmedkhan oglu -** PhD in Law, Associate Professor, a senior researcher of Department for Criminal Law and Human Rights of the Institute of Law and Human Rights of National Academy of Sciences (Azerbaijan). E-mail: allahverdi.teymurov@gmail.com

practice of use of the procedural actions provided by the law directed to collecting and a research of proofs on criminal case, ensuring the rights of participants of criminal legal proceedings. First of all, interrogation is among such actions.

**Keywords:** criminal trial; investigative action; proof; interrogation; testimony; law, analysis; offer.

Məlum olduğu kimi, sübutetmə bütün cinayət prosesinin təməlini, istintaq hərəkətləri isə məhkəməyədək icraatda, xüsusilə də, ibtidai araşdırma mərhələsində sübutetmə fəaliyyətinin əsas vasitələr sistemini təşkil edir. Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli CPM-də bu sistem həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Bu amil məhkəməyədək icraatın prosessual formasının təkmilləşdirilməsi məqsədilə tədqiqat apararkən istintaq hərəkətlərinin prosessual forması məsələsinə mütləq diqqət yetirilməsini şərtləndirir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, qanunvericilik qaydasında istintaq hərəkəti kateqoriyasına anlayış verilmədiyi üçün nəzəriyyədə bu məsələ hələ də tədqiqat predmeti kimi aktual olaraq qalır. Prof. C.H. Mövsümov qeyd edirdi ki: «… müstəntiq işi icraatına qəbul etdikdən sonra dərhal istintaqa başlayır və cinayətin açılmasını, işin hallarının tam, obyektiv və hərtərəfli araşdırılmasını, cinayət etməkdə təqsiri olan şəxsin cinayət məsuliyyətinə alınmasını təmin etmək məqsədi ilə istintaq hərəkətləri aparır … həmin istintaq hərəkətləri vasitəsi ilə işin hallarının aydınlaşdırılması və cinayət məsuliyyətinə cəlb edilən şəxsin müəyyən edilməsi üçün sübutlar toplanır, möhkəmləndirilir və yoxlanır» [3, s. 66-67].

Həmin yanaşmanın davamçısı olaraq, prof. M.Ə. Cəfərquliyev istintaq hərəkətləri haqqında yazır: «… cinayət-prosessual qanunvericiliyin tələbinə görə, müstəntiq cinayət işini icraatına qəbul etdikdən sonra gecikdirmədən, yəni dərhal ibtidai araşdırmaya başlamalı, cinayətin açılmasını, işin hallarının tam, obyektiv və hərtərəfli yoxlanılmasını, cinayəti etməkdə təqsiri olan şəxsin cinayət

məsuliyyətinə alınmasını təmin etməli və bu məqsədlə intensiv surətdə istintaq hərəkətlərini aparmalıdır … aydın məsələdir ki, yalnız həmin istintaq hərəkətləri vasitəsi ilə işin hallarının araşdırılması və cinayət məsuliyyətinə cəlb edilən şəxsin müəyyən edilərək ifşa olunması üçün sübutlar toplanır, möhkəmləndirilir, təhlil edilir və qiymətləndirilir» [1, s. 423].

Hesab edirik ki, edilmiş istinadlar istintaq hərəkətlərinin ümumi məqsədləri barədə tam aydın təsəvvür yaratmaq iqtidarında olduğu üçün tərəfimizdən dindirmə istintaq hərəkətinin prosessual formasına ayrılıqda baxmaq daha məqsədəuyğun olar. Qüvvədə olan CPM-in 226-234-cü maddələri dindirmə istintaq hərəkətinin prosessual formasını müəyyən edən normativ bazanı təşkil edir.

Həmin müddəalara əsasən, dindirilməli olan şəxslər (şahid, zərər çəkmiş, şübhəli, təqsirləndirilən şəxs və başqa şəxslər) müstəntiqin yanına şəxsən, çağırılırlar. Bu, o deməkdir ki, dindirilməli olan şəxsi müstəntiq özü çağırmalıdır və dindirmənin nə zaman, harda, hansı məsələ ilə əlaqədar həyata keçiriləcəyi barədə məlumat ifadə verməli olan şəxsin bilavasitə özünə bildirilməlidir. Lakin təcrübədə, bəzən müstəntiq dindirilməli olan şəxslə birbaşa əlaqə saxlaya bilmir (məsələn, şəxs mobil telefondan istifadə etmir, daimi iş yeri olmur, evdə tapılmır və s.). Belə hallarda, dindirilməli olan şəxslər onların yetkinlik yaşına çatmış ailə üzvlərindən, qonşularından, mənzil istismar təşkilatının nümayəndələrindən birinə və ya onların iş, yaxud təhsil yeri üzrə verilən çağırış vərəqəsi ilə çağırılırlar. Həbsdə saxlanılan şübhəli və təqsirləndirilən şəxs həbs yerinin müdiriyyəti vasitəsilə çağırılır. Yetkinlik yaşına çatmayan şəxslər isə, bir qayda olaraq, onların qanuni nümayəndələri vasitəsi ilə çağırılırlar. Şəxsin dindirməyə çağırışı teleqram, telefonoqram, faksoqram vasitəsilə də həyata keçirilə bilər.

Şahid dindirilərkən, dindirmənin predemetini cinayət təqibi üçün əhəmiyyəti olan bütün hallar, o cümlədən, şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin, digər şahidlərin şəxsiyyəti barədə məlumatlar təşkil edir. Şahid ibtidai istintaq

hərəkətinin aparıldığı yer üzrə, zəruri hallarda isə onun olduğu yer üzrə,bütün hallarda digər şahidlərdən ayrılıqda dindirilir. Dindirmə qurtaranadək eyni iş üzrə çağırılmış şahidlərin öz aralarında ünsiyyətdə ola bilməməsi üçün müvafiq tədbirlər görülə bilər. Bir qayda olaraq, belə tədbir qismində şahidlərin ayrı-ayrı otaqlarda saxlanması, yaxud şahidlərin ayrı-ayrı vaxtlarda dindirməyə çağırılması tətbiq edilir.

Dindirmədən əvvəl müstəntiq şahidin şəxsiyyətini müəyyən edir, ona hansı iş üzrə çağırıldığı barədə məlumat verir və ona iş üzrə məlum olan bütün hallar barədə danışmaq vəzifəsi, habelə ifadə verməkdən imtina etməyə, boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə xəbərdarlıq edir. Şahidə özünün və ya yaxın qohumlarının əleyhinə ifadə verməyə borclu olmadığı barədə məlumat verilir. Bundan sonra müstəntiq şahidlə şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin münasibətlərini müəyyənləşdirir və dindirməyə başlayır. Dindirmə şahidə cinayət təqibi ilə bağlı bütün halları danışmaq təklifi ilə başlanır və bundan sonra ona suallar verilə bilər.

Bəzən, ibtidai istintaq zamanı yetkinlik yaşına çatmamış şəxslərin dindirilməsi zərurəti yaranır. Bu zaman sual yaranır: Hansı yaşlı uşaq şahid qismində dindirilə bilər? Qüvvədə olan cinayət-prosessual qanunvericiliyin müddəaları belə deməyə əsas verir ki, əgər yetkinlik yaşına çatmayan şəxs iş üçün əhəmiyyətli məlumatları şifahi və ya digər formada təqdim edə bilərsə, o, yaşından asılı olmayaraq şahid qismində dindirilə bilər. Sadəcə olaraq, bu zaman nəzərə alınmalıdır ki, 14 yaşınadək şəxsin dindirilməsi bütün hallarda müəllimin, zəruri hallarda isə həkimin və onun qanuni nümayəndəsinin iştirakı ilə aparılmalıdır. Müstəntiqin mülahizəsinə görə 14 yaşdan 16 yaşınadək olan yetkinlik yaşına çatmamış şahidin də dindirilməsi onun müəlliminin, həkimin və dindirilən şəxsin qanuni nümayəndəsinin iştirakı ilə aparıla bilər. Dindirmənin başlanmasından əvvəl göstərilən şəxslərə onların dindirmədə iştirak etmək, müstəntiqin icazəsi ilə öz qeydlərini bildirmək və suallar vermək hüququ, habelə onların vəzifələri izah

edilir. Müstəntiq verilmiş sualları rədd edə bilər, lakin onlar dindirmə protokolunda qeyd edilməlidir. Həmin protokola, həmçinin dindirilmiş şəxsin və dindirmədə iştirak etmiş şəxslərin bütün qeydləri daxil edilir.

Əgər dindirilməli olan şəxs lal, kar və ya kor olarsa, belə bir şahidin dindirilməsi onun işarələrini başa düşən və ya onunla işarələr vasitəsilə danışan şəxsin iştirakı ilə aparılmalıdır. Şahidin ruhi və ya digər ağır xəstəlikdən əzab çəkdiyi halda isə onun dindirilməsi həkimin icazəsi və iştirakı ilə aparılır.

Şahidin dindirilməsi haqqında protokol tərtib edilir.Şahidin ifadələri və onun verilmiş suallara cavabları dindirmə protokolunda birinci şəxs adından və mümkün qədər hərfi şəkildə qeyd edilir. Dindirmə zamanı şahid öz ifadələrini Azərbaycan Respublikasının dövlət dilində və ya özünün bildiyi dildə verir. Şahid dövlət dilini və ya ibtidai araşdırmanın aparıldığı dili bilmədiyi halda dindirmənin aparılmasına tərcüməçi cəlb edilir. Şahidin xahişi ilə ifadəsi onun bildiyi dilə tərcümə edilir.Bu protokol şahid və tərcüməçi tərəfindən imzalanır. Protokol iş materiallarına əlavə edilir. Şahidin xahişi ilə ona ifadələrini əlyazma üsulu ilə vermək imkanı verilir və bu barədə dindirmə protokolunda müvafiq qeyd aparılır.

Ümumiyyətlə, şahidin dindirilməsi haqqında protokolda aşağıdakılar göstərilir:

1) dindirmənin tarixi, vaxtı və yeri;

2) müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

3) şahidin soyadı, adı, atasının adı, habelə onun doğulduğu il, ay, gün və yer;

4) şahidin vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

5) şahidin şübhəli, təqsirləndirilən və zərər çəkmiş şəxslə münasibətləri barədə məlumatlar;

6) şahidə onun hüquqlarının, vəzifələrinin və məsuliyyətinin izah edilməsi barədə qeyd;

7) dindirmənin aparılmasının xüsusiyyətləri, xüsusən şahidin dindirilməsi zamanı audio yazıdan, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə qeyd;

8) şahidə verilmiş suallar və bu suallara onun cavabları, habelə şahidin cinayət işinin hallarının mahiyyəti üzrə sərbəst ifadələri.

Dindirmə qurtardıqdan sonra müstəntiq şahidi dindirmə protokolu ilə tanış edir. Şahid müstəntiqdən dindirmə protokolunda əlavə və düzəlişlərin edilməsi barədə xahiş etmək hüququna malikdir.Dindirmə protokolu müstəntiq və şahid tərəfindən onun axırında, habelə şahid tərəfindən əlavə olaraq onun hər səhifəsində imzalanır. Dindirmə tərcüməçinin iştirakı ilə aparıldıqda, tərcüməçi dindirmə protokolunu şahidlə bərabər və ilk növbədə imzalayır. Şahid dindirmə protokolunu imzalamaqdan imtina etdiyi halda müstəntiq həmin imtinanın səbəbini araşdırır və protokolu öz imzası ilə təsdiq edir. Şahidin savadsızlığı və ya fiziki qüsurları üzündən dindirmə protokolunu imzalaması mümkün olmadıqda, müstəntiq bu halları protokolda əks etdirir və onu öz imzası ilə təsdiq edir. Dindirmə protokolu işin materiallarına əlavə edilir. Dindirilmədə audio yazıdan, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə müvafiq yazı, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə edilir.

Zərər çəkmiş şəxsin dindirilməsi də şahidin dindirilməsi üçün nəzərdə tutulmuş yuxarıda nəzər saldığımız prosessual qaydalara müvafiq şəkildə aparılır.

Söhbət şübhəli şəxsin dindirilməsindən gedərsə, nəzərə almaq lazımdır ki, bu istintaq hərəkəti şəxsin şübhəli şəxs statusu əldə etməsindən dərhal sonra, yəni ya bu şəxsin tutulmasından, yaxud da onun barəsində qətimkan tədbirinin tətbiq edilməsi barədə qərar ona elan edildikdən dərhal sonra həyata keçirilməlidir. Hüquq-mühafizə orqanlarının fəaliyyətində mütləq şəkildə nəzərə alınmalıdır ki, əgər tutulmuş şəxs hüquqi yardım istədiyini bildirərsə, o belə hüquqi yardımı almayanadək dindirilməməlidir. Əgər şəxs artıq dindirilməyə başlamışdırsa, lakin dindirmə gedişatında o, hüquqi yardım istədiyini bildirirsə, onun dindirilməsi

dayandırılmalı və vəkilin iştirakı olmadan davam etdirilməməlidir. Müdafiəçidən imtina etməyən tutulmuş şəxsin müdafiəçinin iştirakı olmadan verdiyi etirafedici ifadələrə məhkəmə baxışı zamanı sübut kimi istinad edilə bilməz. Həmin ifadələrin yalnız CPM-də nəzərdə tutulmuş qaydada müdafiə tərəfinin vəsatəti əsasında sübut qismində qəbul edilməsinə yol verilir. Bu qaydalar ondan irəli gəlir ki, şübhəli şəxsin tutulduğu halda o öz ifadələrini müdafiəçinin iştirakı ilə vermək hüququna malikdir.

Müstəntiq şübhəli şəxsi audio yazıdan, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə etməklə dindirmək hüququna malikdir. Şübhəli şəxsin dindirilməsindən əvvəl müstəntiq ona şübhənin mahiyyətini elan etməyə, habelə şübhəli şəxsə ifadə verməkdən imtina və müdafiəçinin köməyindən istifadə etmək də daxil olmaqla, onun hüquqlarını izah etməlidir. Müstəntiq dindirməyə şübhəli şəxsə şübhə barəsində və onun mülahizələrinə görə iş üçün əhəmiyyətli ola bilən bütün digər hallar barədə ifadə vermək təklifi ilə başlayır. Qalan hallarda müstəntiq şübhəli şəxsin dindirilməsində təqsirləndirilən şəxsin dindirilməsi üçün qanunla nəzərdə tutulmuş aşağıdakı qaydaları rəhbər tutmalıdır.

Müstəntiq təqsirləndirilən şəxsin dindirilməsini ona ittiham elan edildikdən dərhal sonra aparmalıdır. Təxirəsalınmaz hallar istisna olmaqla, təqsirləndirilən şəxsin dindirilməsi yalnız gündüz vaxtı aparılmalıdır. Təqsirləndirilən şəxsin dindirilməsi ibtidai araşdırmanın yeri, zəruri hallarda isə onun olduğu yer üzrə aparılır. Təqsirləndirilən şəxs iş üzrə digər şəxslərdən ayrılıqda dindirilməlidir. Müstəntiq təqsirləndirilən şəxsin iş üzrə digər şəxslərlə ünsiyyətdə olmaması üçün tədbirlər görür. Təqsirləndirilən şəxsin dindirilməsində müdafiəçi iştirak etmək hüququna malikdir [7, s. 25-40].

Təqsirləndirilən şəxs ona elan edilmiş ittihamın mahiyyəti, habelə iş üçün əhəmiyyətli olan hallar üzrə dindirilir. Müstəntiq təqsirləndirilən şəxsi audio yazıdan, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə etməklə dindirmək hüququna malikdir. Dindirmənin başlanmasından əvvəl

müstəntiq təqsirləndirilən şəxsə onun müdafiəçinin köməyindən istifadə etmək və ifadə verməkdən imtina etmək hüququnu izah edir. Dindirmənin əvvəlində müstəntiq təqsirləndirilən şəxsin ona elan edilmiş ittiham üzrə özünü təqsirli bilib-bilmədiyini aydınlaşdırmalıdır.

Dindirmə zamanı təqsirləndirilən şəxsin susması onun özünü təqsirli bilməsi kimi qiymətləndirilə bilməz. Müstəntiq təqsirləndirilən şəxsə ona elan edilmiş ittiham üzrə və özünün mülahizələrinə görə cinayət işi üçün əhəmiyyətli olan digər hallar üzrə ifadələr verməyi təklif edir.

Şübhəli və ya təqsirləndirilən şəxsin hər bir dindirilməsi haqqında müstəntiq tərəfindən protokol tərtib edilir və həmin protokolda aşağıdakı məlumatlar göstərilməlidir:

1) dindirmənin aparıldığı tarix, vaxt və yer;

2) müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

3) şübhəli və ya təqsirləndirilən şəxsin soyadı, adı və atasının adı, habelə onun doğulduğu il, ay, gün və yer, onun vətəndaşlığı, təhsili, ailə vəziyyəti, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer;

4) şübhəli və ya təqsirləndirilən şəxsin məhkumluğu, dövlət təltifləri və şübhəli və ya təqsirləndirilən şəxsi səciyyələndirən və iş üçün əhəmiyyətli olan digər məlumatlar;

5) şübhəli və ya təqsirləndirilən şəxsə onun hüquqlarının və vəzifələrinin izah edilməsi barədə qeyd;

6) şübhəli və ya təqsirləndirilən şəxsin dindirilməsinin xüsusiyyətləri, xüsusən dindirmə zamanı audio yazıdan, video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə qeyd;

7) şübhəli və ya təqsirləndirilən şəxsə verilmiş suallar və onun bu suallara cavabları, habelə şübhəli və ya təqsirləndirilən şəxsin işin hallarının mahiyyəti üzrə ifadələri.

Şübhəli və ya təqsirləndirilən şəxsin ifadələri və onun verilmiş suallara cavabları birinci şəxs adından mümkün qədər hərfi şəkildə qeyd edilir.Şübhəli və ya təqsirləndirilən şəxsə öz ifadələrini əlyazma üsulu ilə vermək imkanı verilir və bu barədə müstəntiq protokolda qeyd aparır. Şübhəli və ya təqsirləndirilən şəxsin yazılı ifadələri ilə tanış olduqdan sonra müstəntiq ona əlavə suallar verə bilər. Bu suallar və onlara cavablar protokola daxil edilir.

Dindirmə istintaq hərəkətinin prosessual forması ilə bağlı diqqəti cəlb edən birinci məqam onun həyata keçirilməsinə hər hansı müddət məhdudiyyətinin müəyyən edilməməsidir. Hesab edirik ki, müasir dövrdə hüquqi təminatların gücləndirilməsinin prioritet olduğu bir şəraitdə qeyd edilən məsələnin diqqətdən kənarda qalması məqsədəuyğun deyil.

Təsadüfi deyildir ki, Rusiya Federasiyasının post-sovet CPM-də bu hala xüsusi diqqət yetirilmişdir. RF CPM-in 187-ci maddəsinə əsasən, «… dindirmə fasiləsiz olaraq 4 saatdan artıq davam edə bilməz … dindirmənin davam etdirilməsinə istirahət və yemək qəbulu üçün 1 saatdan az olmayan müddətdə fasilə verdikdən sonra, lakin gün ərzində dindirmənin müddətinin 8 saatı keçməməsi şərti ilə yol verilir». Qeyd etmək lazımdır ki, qeyd edilən problem milli hüquq ədəbiyyatında M.S. Qəfərov tərəfindən də tədqiq edilmişdir və o, məsələ ilə bağlı AR CPM-in aşağıdakı məzmunlu 225.1-ci maddə ilə təkmilləşdirilməsini məqsədəmüvafiq hesab etmişdir:

«Maddə 225.1 Dindirmənin müddəti

Dindirmənin ümumi müddəti gündə 4 saatdan artıq ola bilməz. İkinci saatdan sonra 15 dəqiqə fasilə edilməsi zəruridir.

Yetkinlik yaşına çatmayan şəxslərin dindirilməsi gündə 2 saatdan artıq ola bilməz.

Dindirilən şəxs psixi və ya digər ağır xəstəlikdən əziyyət çəkirsə, onun dindirilmə müddəti həkim tərəfindən müəyyən edilir» [2, s. 268].

M.S. Qəfərovun irəli sürdüyü təklif metodologiya cəhətdən əhəmiyyətli olsa da, qeyd etmək lazımdır ki, onun tərəfindən dindirmə müddətlərinə həsr edilmiş maddənin 226-cı maddədən – dindirməyə çağırış qaydalarından, daha əvvəldə verilməsi barədə, eləcə də yetkinlik yaşına çatmayanlar üçün maksimum 2 saat dindirmə müddəti təsbit edilməsi barədə təklifləri müzakirəyə açıqdır. Belə ki, yetkinlik yaşına çatmayanların fasiləsiz olaraq dindirilməsi problemini tədqiq etmiş bir sıra müəllifin əsərlərinin öyrənilməsi və ümumiləşdirilməsi belə qənaətə gəlməyə əsas verir ki, digər prosessual təminatlarla birgə tətbiq edildiyi hallarda (psixoloqun, pedaqoqun, valideynin iştirakı, mütəmadi fasilələrin verlməsi, dindirilən şəxsi yormamaq və s.) yetkinlik yaşına çatmayanların dindirilməsi müddəti 2 saatdan da çox ola bilər [4, s. 7; 6, s. 105].

Bu sahədə O.Y. Skiçkonun tədqiqat işinin nəticələri xüsusi diqqət cəlb edir. Fikrimizcə, o, haqlı olaraq «yetkinlik yaşına çatmayanlar» kateqoriyasını dindirmə taktikası və prosessual qaydası baxımından olduqca geniş miqyaslı hesab etmiş və bu kateqoriyadan olan şəxslərə daha dəqiq təsnifat çərçivəsində – 3 yaşından 6-7 yaşa qədər: məktəbəqədər olan uşaq; 6-7-dən 11-12 yaşa qədər kiçik məktəbli uşaq, 11-12-dən 14-15 yaşa kimi yeniyetmə, 14-15-dən 17-18 yaşa kimi böyük məktəbli kimi baxmağı təklif etmişdir [5, s. 183-184].

Həqiqətən də, 18 yaşın içərisində olan şəxslə 14 yaşı yenicə tamam olmuş şəxsin dindirilməsinin prosessual formasında differensiasiya aparılması ən azı yetkinlik yaşına çatmış şəxslə yetkinlik yaşına çatmamış şəxsin dindirilməsinin prosessual formaları arasında differensiasiya aparılması qədər məntiqlidir. Odur ki, belə differensiasiyanın daha ədalətli aparılması üçün qanunla dəqiq vaxt məhdudiyyətinin təsbit edilməsi əvəzinə yetkinlik yaşına çatmayan şəxsin dindirilməsi müddətinin də həkim, pedaqoq, psixoloq kimi mütəxəssislərdən birinin fikri öyrənilməklə maksimal 4 saat limitində müəyyən edilməsini ağlabatan hesab edirik. Hüquqi tənzimlənmə baxımından isə, müvafiq qaydanın AR CPM-in 228-ci maddəsində yeni bənd kimi təsbit edilməsini daha uğurlu hesab edirik:

«228.5. Yetkinlik yaşına çatmayan şəxsin dindirilməsi zərurəti yarandıqda, dindirmənin müddəti müvafiq mütəxəssisin (həkim, pedaqoq, psixoloq) fikri öyrənilməklə 4 saatdan çox olmamalıdır».

Dindirmənin ümumi müddəti barədə maksimal 4 saatlıq limiti isə tam məqsədəuyğun hesab etdiyimiz üçün M.S. Qəfərovun təklifini dəstəkləyirik, lakin müvafiq qaydanın AR CPM-in 226-cı maddəsində yeni bənd kimi təsbit edilməsini daha məqsədəuyğun hesab edirik:

«226.5. İfadə verən şəxsin dindirilməsi fasilə vermədən 4 saatdan artıq davam etməməlidir».

Dindirmə istintaq hərəkətinin prosessual forması ilə bağlı qeyd etmək istədiyimiz daha bir məsələ dindirmə zamanı yönəldici sualların verilməsi qadağasının yeni qanunvericiliklə nəzərdə tutulmamasıdır. Xatırlatmaq istərdik ki, Az. SSR-in 1961-ci il CPM-in 173-cü maddəsində dindirmə zamanı yönəldici suallara yol verilməməsi qadağası birbaşa normativ qaydada təsbit edilmişdi. AR-in yeni CPM-də isə, «dindirmə zamanı yönəldici suallardan çəkinmək» vəzifəsi yalnız 310.2.9-cu maddədə məhkəmə baxışında iştirak edən və ya məhkəmə iclasında olan şəxslərin qaydanın təmin edilməsi istiqamətində riayət etməli olduqları tələb kimi nəzərdə tutulmuş, istintaq hərəkəti kimi dindirmə qaydalarını müəyyən edən maddələrdə müvafiq qadağa təsbit edilməmişdir. Yönəldici sualların yolverilməzliyi qaydasının hüquqi əhəmiyyəti prof. C.H. Mövsümov tərəfindən dəqiq və lakonik şəkildə ifadə edilmişdir: «… belə suallar şahidi qabaqcadan müəyyən cavablar verməyə yönəldir və bir çox hallarda isə onu belə cavablar verməyə qeyri-ixtiyari vadar edir» [3, s. 82].

Qeyd edilən problem post-sovet dövlətlərinin cinayət-prosessual qanunvericiliyində də diqqətdən kənarda qalmamışdır. Məsələn, RF CPM-in 189-cu maddəsinə əsasən, dindirmə zamanı yönəldici sualların verilməsi qadağandır, başqa məsələlərdə müstəntiq dindirmə taktikasının seçimində azaddır. Hesab edirik ki, müvafiq qadağanın tez bir zamanda yeni qanunvericilikdə bərpa edilməsi

dindirmə istintaq hərəkətinin prosessual formasının təkmilləşdirilməsi üçün çox əhəmiyyətlidir. Tərəfimizdən yuxarıda dindirmə zamanı qadağa müəyyən edən yeni norma təklif edildiyi üçün, yönəldici sualların yolverilməzliyi barədə qaydanın da həmin maddədə ikinci cümlə kimi təsbit edilməsi məsələnin normativ həlli yolu kimi təklif edilir:

«226.5. … İfadə verən şəxsə hər hansı bir formada və ya məzmunda yönəldici xarakterli suallar vermək yolverilməzdir».

## References


1. Ceferquliyev M.A. Azerbaycan Respublikasinin cinayet prosesi [Criminal process of Azerbaijan Republic]. Baku, 2008, 768 p.

2. Qafarov M.S. Azerbaycan Respublikasinin cinayet prosesinde shexsiyyetin huquqi veziyyeti: nezeri ve tecrubi meseleler [Status of a person in criminal process of Azerbaijan Republic: issues of theory and experience]. Baku, 2008, 248 p.

3. Movsumov C.H. Ibtidai istintaq [Preliminary investigation]. Baku, 1973, 216 p.

4. Adigamova G.Z., Latypov V.S. K voprosu o vremeni prodolzhitel'nosti doprosa nesovershennoletnego [To issue on duration time of a minor interrogation]. Aktual'nye problemy kriminalisticheskoyi nauki i praktiki [Current problems of criminalistical science and practice]. Kaliningrad, 2008, pp. 3-7.

5. Skichko O.Yu. Taktiko-psikhologicheskie osnovy doprosa nesovershennoletnikh svideteleyi i poterpevshikh na predvaritel'nom sledstvii [Tactical psychological basis of interrogation of minors witnesses and victims in preliminary investigation]. Dis... kand. yurid. nauk [PhD in Law Disseration]. Saratov, 2005, 222 p.

6. Tetyuev S.V. Normy prava o prodolzhitel’nosti doprosa nesovershennoletnikh kak protsessual’naya garantiya ikh prav i zakonnykh interesov v ugolovnom sudoproizvodstve [Law’s norms on duration of interrogation of minors like a procedural guarantee of their rights and legal interests in criminal procedure]. Zhurnal “Problemy prava” [‘Problems of Law’ Journal], Chelyabinsk, 2006, no. 2, pp. 102-106.

7. Pawel Dziekanski. False Statement and the Strategy of Defence / The Critique of Law. Independent Legal Studies. Issue no. 10(3), 2018, pp. 25-40. DOI: 10.7206/kp.2080-1084.227